## Xalq yaddaşı saxlancı

**El yaylağa qalxanda Çaxraç döngəsində dayanan dövlət adamları mal-qoyunu sayıb rəiyyətlərdən, bəylərdən, ağalardan vergi alırdılar. Dövlət adamları İsrafil ağa Kərbalayevə hörmət əlaməti olaraq onun mal-qoyunundan vergi almırdılar. Onun atası Oruc ağa rus ordusunda mayor rütbəsində xidmətdə idi. İl başında məşhur ağalar, bəylər kimi, onlar da çara hörmət əlaməti olaraq dövlətə könüllü vergi verirdilər.**

Bir gün yaylağa qalxanda sürünün biri, üçü, beşi keçir. Yolun qırağında durub keçən sürülərə tamaşa edənlərə deyirlər ki, Qıraxkəsəmənli İsrafil ağanındır. Evi yolun qırağında olan bir kəndli arvad-uşağı ilə sonu görünməyən sürünün tamaşasına çıxıbmış. Kəndli heyrətlə sürünü göstərib sərkar çobandan soruşur:



# İncə ruhlu İsrafil ağanın nağıllaşan səxavəti

– Qardaş, bu sürülərin hamısı Kəsəmənli İsrafil ağanındır?

Sərkar deyir:

– Bəli.

Bunu eşidən kimi, kişi həyətinə cumur, bir cüt qoynunu gətirib İsrafil ağanın sürüsümə qatır.

– Bunları da aparın, – deyir. – Allah bu kişiyə ki, bu qədər var-dövlət verib, qoy bunlar da onun olsun. Mən bir cüt qoyunla neyləyəcəm ki...

Yaylağa çatanda baş sərkar filan kənddə bir kəndlinin bir cüt qoyununu sürüyə qatdığını İsrafil ağaya xəbər verir.

İsrafil ağa cavabında deyir:

– Yadında saxla, arana qayıdanda həmin kənddə, həmin kəndlinin evinin yanında sürülərdən birini saxlayıb evini mənə göstərərsən.

Köç arana qayıdanda baş sərkar İsrafil ağanın dediyi kimi edir. Ağa gəlib sürüdən 20 qoyun, 2 də qoç ayırıb həmin kəndlinin qapısına ötürür.

Kəndli deyir:

– Ay ağa, mən cəmi-cümlətanı sənin sürünə bir cüt arıq qoyun qatmışdım.

İsrafıı ağa gülə-gülə kəndlinin çiynini qucaqlayıb deyir:

– Sən var-yoxun olan bir cüt qoyunu mənə qıyırsan. Bəs mən 5 minlik sürüdən 20 qoyunu, 2 erkəyi sənə verə bilmərəm? Götür, halalın olsun. Qoy, uşaqların südü, qatığı bol olsun.

***

**İsrafil ağa Kərbalayevin ağbirçək nəvəsi Fəxrəndə xanım Kərbalayeva 1988-ci ilin aprel ayında xeyirxah babası haqqında mənə belə bir əhvalat danışdı:**

– Biz Bakıya köçəndən sonra evimizə tez-tez bir həmkəndlimiz gələrdi. Atam Həmzə bəylə ötən günlərdən söhbət edərdi. Yadımdadır, qonaq bir dəfə atama danışırdı ki, xəstələnmişdim, həkimə getdim. Həkim məni muayinə eləyib dedi:

– Səndə vərəm var, ya Tiflisə mualicəyə, ya da yaylağa get. Təzə kərə yağı ye, süd iç, onda xəstəliyin keçib gedər.

Kasıb komamın tinində özümü günə verirdim. Bikef oturmuşdum. Ölümümü gözləyirdim. Bir gün rəhmətlik atan İsrafil ağa atla keçib gedirdi. Yüyəni çəkib atını yanımda saxladı. Niyə bikef oturduğumu soruşdu. Dedim ki, ay ağa, sağlamlığım əlimdən gedir, necə bikef oturmayım? Həkimə getdim. Dedi ya Tiflisə müalicəyə get, ya da yaylağa, təzə inək südü iç, kərə yağı ye, bəlkə sağaldın, belə qalsan, öləcəksən. Özün bilirsən, ay ağa, Tiflisdə belə xəstəliyi qızıl pulla müalicə eləyirlər. Yaylağa getməyə də qapımda nə inəyim var, nə də qoyunum, necə gedim?

Kəndlini babam İsrafil ağa öz faytonunda yaylağa göndərir. Nənəm Hava xanıma ismarıc eləyir ki, özüm bir az gec gələcəm, arpa, buğda biçininin vaxtıdır. Xəstə Fətulla kişini göndərirəm, onu kərə yağına tut, təzə inək südü içirt, qoy, cana gəlsin, yazıqdır.

Saç-saqqalı ağarmış Fətulla kişi o günləri xatırlayaraq razılıqla alqış eləyə-eləyə dedi:

– Ay Həmzə bəy, bu günə kimi yaşamağımın səbəbkarı cənnətlik anan Hava xanım və atan İsrafil ağadır. Allah onlara qəni-qəni rəhmət eləsin.

* * *

İsrafıl ağa həm də Aprel inqilabından qabaq çıxan qəzetlərdə – “Qoç-Dəvət”, “Kaspi” və başqa mətbuat orqanlarında erməni-müsəlman qırğını haqqında məqalələrlə çıxış etmiş, Sayıl təxəllüsü ilə şeirlər də yazmışdır. İsrafıl ağa Sayılın ayrı-ayrı adamlardan topladığımız 3 şeirindən 2-si tam, biri isə naqisdir, cəmi bir bəndi yaddaşlarda qalıb. Həmin bənd Qazax rayonundakı Ağköynək kəndinin ağsaqqalı, el şairi Dərdli Hüseynin yaddaşında qalmışdı. Dərdli Hüseyn deyirdi ki, bu bəndi və “Fələk” adlı şeiri ötən əsrin 30-cu illərində yaşı 80-i ötmüş Kəsəmənli gürcü Mənsur yanımda deyib və mən də yaddaşımda saxlamışam:

***Elmlərin sahibidir Mikayıl,***
***Sular üstə qanad çaldı Cəbrayıl.***
***Can almağa gəlsə əgər Əzrayıl,***
***Oxu, qafil, Ərrəhmani-yasini.***

“A dağlar” şeirində isə Sayıl dağlara belə poetik xitab edib:

***Bir yanın Arxaşan, Gülüm bulağı,***
***Bir yanın Əyriqar, Fərrux yaylağı.***
***Meydan da üstündə, bir də Pir dağı***
***Görsət bizə yadigarın, a dağlar.***

***Bir yanın Babacan, şamlıq meşəsi***
***Açılıb laləsi, tər bənövşəsi.***
***Dilican dərəsi, Məmməd körpüsü***
***Boş qalmasın oylaqların, a dağlar.***

***Var pənahı şahlar şahı Sayılın,***
***Azad etsin qibləgahı, Sayılın.***
***Tükənməz sizlərin ahı Sayılın,***
***Heç olmazmı namus-arın, a dağlar.***

**Şəmistan NƏZİRLİ,**
**yazıçı-publisist**